

**Elman İSKƏNDƏR**

# *Sən azadsan, Qarabağ!*

*Dövran dəyişdi, min şükür!*
*Sən azadsan, Qarabağım!*
*Yağı düşmənlər diz çökür.*
*"Artsax" oldu dağım-dağım.*
*Sən azadsan, Qarabağım!*

*Yuxularımız çin oldu,*
*cəngə qalxdı Vətən oğlu.*
*Görüncə Dəmir Yumruğu,*
*Açıldı əlim-ayağım...*
*Sən azadsan, Qarabağım!*

*Yardıqca cəbhə xəttini,*
*xalq dikəltdi qamətini.*
*Paytaxtımdan Xankəndinə*
*Gəldi üçrəngli bayrağım.*
*Sən azadsan, Qarabağım!*

*Bir zaman yağı tapdağı*
*haldan salmışdı*
*Düşmən gördü sinə dağı,*
*Yaşıl geyir bağça-bağım.*
*Sən azadsan, Qarabağım!*

*İntizarım bitdi daha...*
*İnamdır baxan sabaha.*
*Qoy cıdıra, seyrəngaha*
*şəfəq düşsün payız çağı,.*
*Sən azadsan, Qarabağım!*

*Hamı dönsün doğma yurda.*
*Qurulsun toy-şənlik burda...*
*Qanla suvarılan yerdə*
*tökülməsin qəmim, ağım.*
*Sən azadsan, Qarabağım!*

*Şuşada dağların sisi,*
*Üzeyirin min bəstəsi.*
*Havalanır Xanın səsi...*
*Başlanır muğamlı çağım.*
*Sən azadsan, Qarabağım!*

*Evlərə gur nəfəs gəlir,*
*Yaşamağa həvəs gəlir.*
*Hər anı müqəddəs gəlir.*
*Bəzənsin köhnə oylağım.*
*Sən azadsan, Qarabağım!*

*Otuz il bir xatirədi...*
*Şəhidlərə abidədi!*
*Hər anı qəmli pərdədi...*
*Bir vaxt qana dönüb bağrım,*
*Sən azadsan, Qarabağım!*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 30 sentyabr.- S. 37.